*"Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq eyni zamanda bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik". Bu fikirləri Prezident İlham Əliyev Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılış mərasimindəki çıxışında deyib.*

# Əzəli yurdumuz doğma sakinlərinə qovuşacaq



Bu sözlər xalqımızın vahid ideya ətrafında birliyə, tarixi ədalətin bərpasına yönəlmiş çağırış kimi də səslənir. Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın və dövlətimizin əzmi onu göstərir ki, Azərbaycan gec-tez bu istəyinə də nail olacaq, Qərbi Azərbaycana qayıdış reallaşacaq. Ölkə rəhbərinin uzaqgörən və uğurlu siyasəti sayəsində həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilib, Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq müstəviyə çıxarılıb.

Qarabağda olduğu kimi, Qərbi Azərbaycanda da xalqımıza məxsus tarixi, dini abidələrimizi dağıdan, ermənilərin yalanlarını ifşa edən sənədlər, xəritələr bu torpaqların əsl sahiblərinin azərbaycanlılar olduğunu təsdiqləyir. Həmin xəritələrdəki Azərbaycan mənşəli adlar da göstərir ki, xalqımız əsrlər boyu bu torpaqlarda yaşamış, dəfələrlə erməni xəyanətlərinin qurbanı olsalar da, el-obalarına sahib çıxmışlar.

1918-ci ilə qədər bu torpaqlarda türklər yurd-yuva, ev-eşik tikmiş, dövlət qurumları formalaşdırmışlar. Həm 1590-cı il İrəvan bəylərbəyliyinin icmal dəftərində, həm də 1727-ci ildə Osmanlı dövlətinin tərtib etdiyi İrəvan əyalətinin icmal dəftərində olan yer adları, yaşayış məntəqələri, yaşayan adamların sayı açıq-aydın göstərilmişdir.

Qərbi Azərbaycan - indiki Ermənistan ərazisində xalqımızın çox zəngin mədəni-tarixi irsi var. Bu da təsadüfi deyil, çünki əcdadlarımız min illər boyu bu ərazidə yaşamışlar. Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinlərinin Azərbaycan türkləri olmağına baxmayaraq, imperiya tərəfindən ora köçürülən ermənilər XX əsrin 1-ci və 2-ci yarısında Azərbaycan türklərini öz doğma yurdlarından didərgin salmışlar.

30 ildən sonra Qarabağ və Şərqi Zəngəzurda ədalət qələbə çaldığı kimi, Qərbi Azərbaycanımızda da ədalət öz yerini tapacaq. Çünki o torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır.

İndiyə qədər verdiyi hər bir sözünə əməl edən Prezident İlham Əliyevin bu vədinin də reallaşacağına əminik.

Dövlət başçımız xalqımıza daim ümid verir, 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə dediyi kimi, "Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük… Bu gün yerləşdiyimiz yüksəkliklərdən hətta Naxçıvan dağları da görsənir. Yəni bu, doğrudan da, tarixi nailiyyətdir".

Qarabağı, Şərqi Zəngəzuru azad, suverenliyi tam bərpa etmək Azərbaycan xalqının, igid döyüşçülərin qəhrəmanlığı, şücaəti hesabına mümkün olduğu kimi, Qərbi Azərbaycanda da tarixi yurdumuz əbədi sakinlərinə qucaq açacaq.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika.- 2024.- 3 oktyabr (№ 216). - S.7.